| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL910, Azərbaycan dili-2, 8 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Doktorantura | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | PHD Kərimova Əsmər Xanbala qızı | |
| | **E-mail:** | esmer.kerimova.88@bk.ru | |
| | **Mühazirə otağı/** | | |
| | **Cədvəl Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Hamlet İsaxanlı, Elza İsmayılova, Firəngiz Nəsirova. The Azerbaijan language.Khazar University Press Baku.1997. 167 səhifə.<br>2. Şamil Sadiq.Azərbaycan dilini öyrənirəm. Bakı,2024, 248 səhifə<br>3. Xudiyeva Gülşanə. Azerbaijani language. Baku,2025, 133 səhifə<br>4. Gülheyran Rəhimova, Elmira Fərəcullayeva, Məhbubə Qurbanova, Reyhan Həbibli Azərbaycan dili, BDU nəşri, 2016, 169 səhifə | | |
| **Tədris metodları** | Video tapşırıq, yarış, ekskursiya, təlim, görüş | + | |
| | Qruplarla iş | + | |
| | Sual-cavab | + | |
| | Obrazlı oyunlar | + | |
| | Kartlarla iş | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz(%)** |
| | Davamiyyət | | 5 |
| | Aktivlik | | 5 |
| | Quiz 1 | | 5 |
| | Quiz 2 | | 5 |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Video tapşırıq/ Müsahibə/Yarış.** | | 10 |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | “Dil haqqında” qanunda və Dövlət Proqramında öz əksini tapmış dilə xüsusi diqqət yetirilməsi ilə əlaqədar, Azərbaycanda dövlət dilinin tədrisi məsələləri aktuallaşır və xüsusi diqqətə layiqdir. Müxtəlif ölkələrdən gələn əcnəbi tələbələrin sayının artması Azərbaycan dilinin tədrisində yeni metodlar və imkanlar tətbiq etməyi tələb edir. Əcnəbi tələbələrə Azərbaycan dilinin tədrisi hərtərəfli xarakter daşıyır. Dərslərdə tələbələrin oxu, dinləmə, danışıq və yazıda zəruri dil və nitq bacarıqlarının formalaşdırılması yolu ilə əldə edilən praktiki, tərbiyəvi və inkişaf etdirici məqsədlər ehtiva edilir. Hər bir nitq fəaliyyəti növündə bilik və bacarıqların inkişafı dinləmə, danışma, oxuma və yazma arasında sıx əlaqə nəzərə alınmaqla müəyyən spesifikliyə malikdir. Sistemlilik, ardıcıllıq, məlumatlılıq, əlçatanlıq, davamlılıq, ana dilinin nəzərə alınması, kommunikativ diqqət, tələbələrin şifahi və yazılı peşəkar nitqinin formalaşdırılması, peşəkar situasiyalarda nitq bacarıqlarının inkişafı, həm eyni, həm də müxtəlif peşə sahibləri ilə dialoq aparmağın öyrədilməsi dil tədrisinin əsas | | |

| | |
|---|---|
| | prinsipləri və məqsədidir. Fənnin tədrisi prosesində 4 səviyyə üzrə tədris aparılır. Qrammatika, oxuyub-anlama, dinləmə mətnləri və esse. |
| **Kursun məqsədləri** | • Azərbaycan dilinin qrammatikasının ilkin ünsiyyət səviyyəsində tələbələrə mənimsətmək.<br>• Hər dərsdə yeni sözlər öyrənmək və cümlə strukturlarının qurulmasını tədris etmək.<br>• Nəzəri məlumatlarla yanaşı kiçik dialoqların qurulması vərdişlərini yaratmaq.<br>• Audio materialları dinlətmək, dinləmə və drək prosesini artırmaq.<br>• Yazılı mətnlər üzərində işi təmin etməklə tələbələrdə mətnə sual vermək, oxuyub-anlama bacarıqlarını formalaşdırmaq.<br>• Qrammatik materialların mənimsənilməsi nəticəsində Azərbaycan ədəbi dilinin normalarına uyğun səlis nitq qurmaq vərdişləri yaratmaq.<br>• Düzgün tələffüz və oxu vərdişləri aşılamaq<br>• əsas qrammatik strukturları mənimsətmək<br>• gündəlik həyatda və təhsil mühitində sərbəst ünsiyyət qurmaq bacarığı aşılamaq<br>• yazılı mətnləri anlama və sadə mətnlər tərtib etmək qabiliyyəti qazandırmaq<br>• Elmi işlərin yazılması zamanı Azərbaycan dilinində yazılmış ədəbiyyatlara istinad etmək üçün (tərcüməsiz) oxuyub-anlama vərdişlərini formalaşdırmaq. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursu tamamlayan tələbələr ilkin səviyyədə yəni A1 və A2 səviyyələrinə uyğun Azərbaycan dilinin 4 kateqoriyası üzrə təlim nəticələrinə yiyələnmiş olacaqlar. Eyni zamanda konkret olaraq;<br>• Azərbaycan əlifbasını düzgün oxuyur və tələffüz edir<br>• Özünü və başqalarını sadə formada təqdim edir.<br>• Müxtəlif mövzular ətrafında sadə mətnlər və dialoqlar qurur<br>• Mətnlərin məzmunu anlayır. Sual tərtib edə bilir<br>• Əsas qrammatik strukturlardan düzgün istifadə edir.<br>• Şifahhi təqdimat edir<br>• Azərbaycan mədəniyyəti ilə bağlı əsas anlayışları izah edir.<br>• Elektron resuslarda Azərbaycan dilində elmi işin istiqamətinə uyğun axtarışlar edir. Əldə edilən materialın məzmunu ilə tanış ola bilir. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq – 5 bal**<br>Tələbənin müzakirələrdə iştirakı, dərsə hazırlıq səviyyəsi, mövzularla əlaqəli verilən tapşırıqlar bu qiymətləndirməyə daxildir. Tələbə verilən tapşırığı yerinə yetirmədiyi halda bu bal ümumi qiymətləndirmədə nəzərə alınmır. Həftəlik tapşırıqlar fəallıq balı olaraq hesablanacaq.<br>**Davamiyyət – 5 bal**<br>Semestr ərzində tələbənin dərsdə iştirakına görə bal verilir. 2 qaib 1 balı kəsir. Universitet tərəfindən müəyyənləşdirilmiş limiti (icazəli və ya icazəsiz) istifadə edən tələbə davamiyyət balı almayacaqdır. Bal verilən zaman tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzrsüz buraxılan hər dərs üçün 0,5 bal çıxılacaq. |

**Quiz 1.** Test tapşırığı və açıq tipli sual əsasında tərtib edilir. Nəzəri məlumatların mənimsəmək və təcrübədə tətbiqetmə bacarıqlarının formalaşmasında əhəmiyyətli rola malikdir. ***5 balla*** qiymətləndirilir.

**Quiz 2. Təcrübə.** Əməli yazı nümunələrini daha çox tətbiq edilən ünvanlarında əyani olaraq işlə tanış olmaq. Metodist tərəfindən əvvəlcədən müəyyən edilmiş situasiya əsaslı işlər hazırlmaq və təqdim etmək. Nəticədə, real və faydalı fəaliyyət növü olaraq tələbələr öyrəndiklərini tətbiqetmə bacarıqlarına da yiyələnəcəklər. ***5 balla*** qiymətləndirilir.

**Viktorina/sorğu/video tapşırıq/**

Layihə əsaslıdır. Burada komanda işi formasında tərtib edilir. Praktik və nəticəyönümlü mövzular işlənir. Qlobal xarakter daşıyan və  sosial statuslu fəaliyyət planlaşdırılır. Mövzuların və metodların müxtəlifdir. Qrupun hazırlıq səviyyəsinə uyğun olaraq növlər tətbiq edilə bilər. ***10 balla*** qiymətləndirilir.

**Məqsəd:**

Tələbələrin **kollektiv fəaliyyət**, **layihə planlaşdırma və idarəetmə**, **yaradıcı təqdimat** və **kommunikasiya bacarıqlarını** inkişaf etdirmək.

Tapşırığın tələbləri:

- **Qrup işi zamanı əməkdaşlıq** əlaqələrini düzgün qurmaq
- Mövzunu komandada **iş bölgüsü** əsasında işləmək
- Yazılı və şifahi **nitq mədəniyyətinə** riayət etmək
- **Tənqidi yanaşma** və **yaradıcılıq qabiliyyətini** nümayiş etdirmək
- Qrup üzvləri ilə **effektiv kommunikasiya** qurmaq
- Layihəni **yaradıcı və vizual vasitələrlə** təqdim etmək
- İctimai təqdimat zamanı **özünəinam** və **natiqlik bacarıqlarını** nümayiş etdirmək

**İmtahan haqqında:**

**Aralıq imtahanı** – 30 bal (imtahanda tələbələrin biliyi həm nəzəri suallar, həm test, həm də keçilən mövzulara aid tapşırıq və çalışmalarla yoxlanılacaqdır)

**Final imtahanı** – 40 bal (imtahanda tələbələrin biliyi həm nəzəri suallar, həm test, həm də keçilən  mövzulara aid tapşırıq və çalışmalarla yoxlanılacaqdır)

İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyat və internet resurslarına müraciət etmək vacibdir. İstifadə ediləcək elmi vəsaitlərin bir qismi tərəfimizdən təmin ediləcəkdir.

**Cədvəl**

| № | Tarix | Fənnin mövzuları | Dərslik və tapşırıqlar |
|---|---|---|---|
| 1 | | 1. Keçilən qaydaların təkrarı | |
| | | 2. Lüğətin təkrarı | |
| 2 | | 3. Sayın morfoloji xüsusiyyətləri. Sayın məna növləri: mətn əsasında sözlər | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.20-23 |
| | | 4. Saat. Riyazi terminlər üzrə iş. Praktik tapşırıqlar. | |

| | | | |
|---|---|---|---|
| 3 | | 5. Sıra sayları və onların yazı qaydaları. Yeni sözlər: “Mənim vətənim” mətn əsasında sözlər | Xudiyeva Gülşanə. Azerbaijani language. Baku, 2025. Səh80-85 |
| | | 6. Dialoqlar üzrə iş.. “Mənim ən yaxın dostum “adlı esse. | |
| 4 | | 7. **QUİZ 1** Sifətin morfoloji xüsusiyyəti. Yeni sözlər: ev əşyaları. | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.26-33 |
| | | 8. Əlamət və keyfiyyət bildirən sifətlər. Yeni sözlər əsasında mətn qurmaq. | |
| 5 | | 9. Sifətin dərəcələri. Yeni sözlər: hiss və həyəcan bildirən leksemlər | G. Rəhimova, E. Fərəcullayeva, M. Qurbanova, R. Həbibli Azərbaycan dili, BDU nəşri, 2016. Səh. 69-79 |
| | | 10. Durğu işarələri termin kimi.Adları və işlənmə yerləri. “Azərbaycanın milli xörəkləri və mənim ölkəmin kulinariyası” mövzusunda esse yazmaq. | |
| 6 | | 11. **QUİZ 2** | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.34-47 |
| | | 12. Əvəzlik. Şəxs və işarə əvəzlikləri. Mətn üzərində iş. “İdmanın insan həyatındakı rolu”mövzusunda qruplarla iş, Dialoq tərtib etmək. | |
| 7 | | 13. Qeyri-müəyyən və təyini əvəzliklərinin cümlədə işlənmə qaydası.<br>14. “Qlobal xəstəliklər” mövzusunda esse yazmaq. | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.47-53 |
| | | 15. Mətnlər üzərində iş. (tərcümə və mətnə aid suallar tərtib etmək) | |
| 8 | | 16. **Aralıq imtahanı** | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.72-81 |
| | | 17. Feil. Feilin sualları. Cümlədə ismi və feilə xəbərin ifadə vasitələri. | |
| 9 | | 18. Təsdiq və inkar feillər. Yeni sözlər: “Turizm” mətni əsasında sözlər | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.62-65 |
| | | 19. “Təqvimdə əlamətdar günlər” mövzusunda esse yazmaq. | |
| 10 | | 20. Feilin şəxsə və kəmiyyətə görə dəyişməsi. Yeni sözlər: verilmiş | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.65-67; 106-109 |

| | | | |
|---|---|---|---|
| | | şəkillərə əsasən 3, 5 və 7 dəqiqə ərzində danışmaq. | |
| | | 21. Komanda işi. Praktik tapşırırq. 4 cümlə ilə başlayan dialoqu biri digərinə ötürərək tamamlamaq. | |
| 11 | | 22. İndiki zaman. “Endemik bitkilər” mövzusunda mətn hazılamaq. | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.104-105 |
| | | 23. Audiovizual tapşırıq. Mövzuya dair sənədli filmə baxmaq. | |
| 12 | | 24. Keçmiş zaman. “Nəsli kəsilən və kəsilmiş heyvanlara aid” esse yazmaq. | H.İsaxanlı, E. İsmayılova, F. Nəsirova. The Azerbaijan language.Khazar University Press Baku.1997. səh. 29-39 |
| | | 25. Gələcək zaman. haqda esse yazın. “Mənim arzularım və gələcək planlarım”Mövzu ətrafında dialoq tərtib edin.<br>26. Yeni sözlər: geyim növləri. | |
| 13 | | 27. **Tapşırıq** | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.92-99 |
| | | 28. Cümlə. Cümlənin .quruluşuna görə növləri. Sadə müxtəsər cümlə. Sadə geniş cümlə Yeni sözlər: mətn əsasında sözlər Audiovizula tapşırıqla üzrə iş. | |
| 14 | | 29. Sual və inkar cümlələri Sual cümləsinin qurulma yolları. İnkar cümləsini yaradan ünsürlər. Yeni sözlər: “Ən rahat və ən bahalı nəqliyyat növləri” haqda mətn tərib etmək. Mətnə dair 10 sual yazmaq | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg.136-139 |
| | | 30. Cümlənin intonasiyasına görə növləri. Lüğət üzrə təkrar. | |
| 15 | | 31. Cümlə üzvlərinin şəxsə və kəmiyyətə görə uzlaşması. Mətn üzərində iş. | Azərbaycan dilini öyrənirəm. Ş.Sadiq, 2017 Pg. 150-152 |
| | | 32. “Mənim ölkəmin və Azərbaycanın milli geyimləri.Müasir geyim tərzi” mövzusunda dialoq hazırlamaq. | |
| 16 | | 33. **Final** | |